# Quranda

## EVLİLİK MÜNAQİŞƏLƏRİNİN HƏLLİ



**Əbdülhəmid əbu Süleyman**

*Əbdülhəmid əbu Süleyman*

# *QURANDA EVLİLİK MÜNAQİŞƏLƏRİNİN HƏLLİ*

*Beynəlxalq İslam Fikri İnstitutu*

İDRAK

BAKI – 2015

“İdrak” İctimai Birliyi
AZ1100, Bakı ş., Bakı Universiteti MTK,
M. Seyidov 3138, D korpusu, 1-ci mərtəbə
www.idrak.org.az

**Əbdülhəmid əbu Süleyman**
Quranda evlilik münaqişələrinin həlli / Tərcüməçi və redaktor, ön söz və şərhlərin müəllifi: fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədov. Bakı: CBS, 2015, 40 səh.

*Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin icazəsi ilə nəşr olunur*
***(DK-368/Q)***

© “İdrak“ İctimai Birliyi, 2015

*Mərhəmətli və Rəhimli Allahın adı ilə!*

İslam dinində qarşıya qoyulmuş başlıca məqsəd – sağlam təməllərə: haqqa, ədalətə, mənəviyyata... əsaslanan cəmiyyət qurmaqdır. Möhkəm cəmiyyəti şərtləndirən amil kimi həm də ailə institutunun sağlamlığı çıxış etdiyindən islamda ailədaxili münasibətlərə xüsusi əhəmiyyət verilmişdir. Ailənin qarşısında duran ümdə vəzifənin – cəmiyyətə layiq fərdlərin yetişdirilməsi vəzifəsinin icrası üçün bu qurumun başlıca elementləri sayılan ər və xanımı arasında sevgi və şəfqətə əsaslanan münasibətlərin olmağı çox mühümdür. İslam dini ailənin möhkəmliyi, uşaqların düzgün tərbiyəsi və həqiqi şəxsiyyət kimi yetişməsi üçün ailədə şəfqət, sevgi və ülfətə əsaslanan mehriban abı-hava yaratmağı valideynlərin qarşısında bir vəzifə olaraq qoyur. Həmçinin yarana biləcək ailədaxili münaqişələrin həlli məqsədilə islamın müqəddəs mətnlərində – ayə və hədislərdə lazımi göstərişlər təqdim olunur. Bu göstərişlərin əsas səciyyəvi cəhəti ailəni dağılmaqdan qorumaq, uşaqların tərbiyəsi və yetişməsi işinin axsamasının qarşısını almaqdır. Məsələn, Quranın "ən-Nisa" surəsinin 34-cü ayəsində ər və arvad arasında yaranmış münaqişənin həlli yolundan danışılır. Məlum olur ki, qadın özbaşınalıq etmək istədikdə və ailə təsisatına xələl gətirə biləcək əxlaq düşkünlüyü yarana biləcəyi təqdirdə müəyyən addımlar atmaq lazım gəlir. Həmin ayədə ailəni, deməli, cəmiyyəti xilas etmək məqsədilə üçmərhələli plan göstərilir. Ayəyə nəzər salaq:

"(Ey kişilər!) Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin, (yola gəlməzsə) onlardan yatağınızı ayırın və döyün! Sizə itaət etdikdə isə daha onlara (əziyyət vermək üçün) başqa yol axtarmayın. Əlbəttə, Allah ucadır, böyükdür!"

Ayənin ərəbcə mətnində başqa dillərə ənənəvi olaraq "döyün!" kimi tərcümə edilmiş "vədribu!" feli işlədilmişdir. Ər-arvad münasibətlərində münaqişə yarandıqda və münaqişənin səbəbkarı kimi qadın çıxış etdikdə ümumi, həm də ənənəvi yanaşma budur ki, qadına əvvəlcə nəsihət edilməlidir. Edilməlidir ki, öz adını qaraya çıxarmasın, uşaqlarını düşünsün, onları ana şəfqətindən məhrum buraxmasın, ailənin dağılmasına baiskarlıq etməsin – bir sözlə, gələcəyi: ailəni və uşaqlarını düşünsün. Əgər bu vasitə təsirli olmazsa, ər qadınla yatağını ayırmalıdır. Bu addım müəyyən psixoloji təsirə malikdir. Çünki qadın tək qaldığında təkliyin, ailənin dağılmasının nə qədər arzuedilməz şey olduğunu başa düşür.

Yuxarıda göstərilmiş iki vasitə səmərəli olmazsa, ayədə "vədribu!" deyilir. Bir qayda olaraq, tarixən "döyün!" kimi başa düşülmüş bu göstərişi qadının əxlaq düşkünlüyünə səbəb olacaq təkəbbürünü, şərə niyyətlənmiş nəfsi və tərsliyini sındırmaq, ailəni qurtarmaq istiqamətində son addım adlandıran müəlliflər çoxluq təşkil edir. Onlar qeyd edirlər ki, islamın ailəyə verdiyi əhəmiyyət, uşaqların gələcəyi, "ailədə fərdlərdən biri səhvə yol verərsə, onu "qırıb atmaq" deyil, bütün vasitələrlə tərbiyə etmək" qaydası nəzərə alınarsa, həmin addımı başa düşmək çətin olmayacaqdır. O da qeyd olunur ki, döymə islamda bir qayda deyildir, müstəsna hallarda, özü də axırda tətbiq olunan cəzadır; gələcəyi qurtarmaq məqsədi daşıyır; bir-biri ilə nikaha

girmiş iki nəfərin arasında baş verən hal kimi təzahür edir; yolunu azmış qadını haqqa qaytarmaq üçün son seçimi əks etdirir.

Ayəyə münasibətdə ənənədən kənara çıxa bilməyən nöqteyi-nəzərin tərəfdarları bildirirlər ki, islamda ailəyə və uşaqların gələcəyinə əhəmiyyət verildiyindən bu qurumun yolunu azmış fərdlərini tərbiyə etmək üçün bütün mümkün variantlar nəzərdən keçirilməlidir. Deməli, qadın özbaşınalığında israr etdikdə onu boşamaqdan qabaq son addımı atmaq lazım gəlir. Bu zaman mümkündür ki, tərslik, inadkarlıq və nəfsi istək qırılsın, beləliklə, ailə dağılmaqdan xilas olsun.

Ənənəvi izahda müsəlman ailə institutunun özünəməxsusluğu (maraqlara deyil, dəyərlərə (fədakarlıq, şəfqət, tərbiyə, kamilləşmə) əsaslanması, nüvəli formata (ərin "nüvə" rolunu oynamağı), iyerarxik quruluşa sahib olmağı...) ön plana sürülür və qeyd olunur ki, belə bir özünəməxsusluğun fonunda döymə (təbii ki, söhbət əzişdirmə və kötəkləmədən deyil, sərt münasibətlə ifadə olunan fiziki cəzalandırmadan gedir) ailədaxili məsələdir, ər-arvad münasibətlərində daxilən nizamlanan haldır.

Amma məlum ayənin ənənəvi izahını doğru hesab etməyən müəlliflər də vardır. Onlardan biri də müasir islam fikrinə dair yeni ruhlu tədqiqatların müəllifi Əbdülhəmid əbu Süleymandır. Problemə baxışda əqli-metodoloji yanaşma nümayiş etdirən tədqiqatçı xüsusi şəkildə qeyd edir ki, ayədəki "vədribu" əmrini "döyün" kimi qəbul etmək islamın humanist təbiətinə ziddir. Odur ki bu ayəni islama görə ailə təsisatının ümumi məzmunu daxilində nəzərdən keçirmək lazımdır. Quranda ailədaxili münasibətlərdə əsas prinsiplər olaraq "şəfqət" və "sevgi"nin

göstərilməsi faktını əsas götürən müəllif "vədribu" əmrinin "döymək" kimi izahının tərəfdarı deyildir:

"Ər-arvad arasında ülfəti və sevgini möhkəmlətmək, ailədaxili münaqişələri həll etmək baxımından "döymək" optimal çıxış yolu təsəvvürü bağışlamır...

Kötəkləməni, fiziki və mənəvi işgəncəni ifadə edən döymək qadında ailədə qalmaq istəyi yaradarmı?..".

Bununla yanaşı, Əbdülhəmid əbu Süleyman Quran mətnində "vədribu" sözü ilə əlaqəli bütün söz-forma və ifadələri təhlil edib belə nəticəyə gəlir ki, "söhbət döymək"dən deyil, "ərin öz həyat yoldaşından ayrı durması, özünü ondan bütünlükdə təcrid etməsi"ndən gedir.

Müəllifin problemə baxışının ümumi səciyyəsi budur ki:

a) islah və xoşbəxtliyin konteksti, vəziyyəti, məqsəd və mərhələlərini;

b) islamın insana ehtiram bəslədiyini, şərəf-izzətini qoruduğunu, müqəddəratını təyin etmədəki haqqını tanıdığını;

c) evlilikdəki ixtiyariliyi, tərəflərdən birinin qane olmadıqda, hüquqlar qorunmadıqda evliliyə son verə bildiyini, qarşı tərəfi nəyəsə zorla məcbur etməyin qeyri-mümkünlüyünü;

ç) zövcələri ilə arasında yaranmış müəyyən anlaşılmazlıqları aradan qaldırmada Peyğəmbərin təcrübəsini nəzərə almaq lazımdır. Bu təqdirdə məlum olacaqdır ki, ayədəki "darabə" felinin mənası "ağrıtma, alçaltma" ola bilməz. Ən məqsədəuyğun olanı – "darabə" sözünün Qurandakı ümumi mənasıdır – uzaqlaşdırma, ayrılma və tərk etmə!

Əziz oxucular! Əbdülhəmid əbu Süleymanın doğma dilimizə tərcümə olunan "Quranda evlilik münaqişələrinin həlli" kita-

bını şəxsi kitabxananız üçün qiymətli ədəbiyyat hesab edirik. Kitabı mütaliə etməklə yeni-yeni fikirlərin, qeyri-ənənəvi baxış tərzinin şahidi olacaqsınız. Hər bir halda, yeni fikirlərlə tanış olaraq mütaliədən xüsusi həzz almaq fürsətini qaçırmayın.

**Elvüsal Məmmədov**
*AMEA akad. Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşı, fəlsəfə üzrə fəlsəfə doktoru, dinşünas*

# ÖN SÖZ

Ailə insan həyatının əsasıdır. Həyatın strukturunu əmələ gətirən də, ondakı proseslərə istiqamət verən də ailə qurumudur. Cəmiyyətin funksionallığı, bazis və üstqurumunun inkişafı, üzvləri arasında münasibətlərin yaxşılaşması məhz ailə təsisatından asılıdır.

Ana ailənin əsasında duran fiqurdur. Ailəyə canlılıq qazandıran ana ailə üzvlərini bir yerə cəm edən qüvvədir; onlar həyatın "əti və ruhu"nu anaların əlindən qəbul edərlər.

Həqarətlə, alçaltma ilə, əxlaqsızlıq və abırsızlıqla analıq dəyəri yox olarsa, həyatın mənası qalmaz, ləzzəti hiss olunmaz, istiliyi və salamatlığı əldən çıxar.

İslam dini analıq hissinin, ailə qurumunun əhəmiyyətini yüksək qiymətləndirmiş, hüquqlarını müəyyən etmiş və qorumuşdur. Bu dinə görə, ailədaxili münasibətlər sevgi və şəfqətə, xeyirxahlıq və ülviyyətə əsaslanmalıdır.

Bu tədqiqat qadının şərəf-izzəti ilə əlaqəli ailə problemlərindən biri haqqındadır. Qadının şərəf-izzəti insanlığın şərəf-izzətidir. Şəriətin məqsədləri həyata keçsin deyə, dəyişən dünyamızda ailələr möhkəmlənsin deyə, gələcək nəsillər müsəlmana layiq güc-qüvvətdən, əmin-amanlıq və şərəf-izzətdən nəsibini alsın deyə, dövrün problemlərinə sinə gərməklə islam missiyası tamamlansın deyə çalışmaq lazımdır.

Uğur Allahdandır və O, doğru yolu göstərəndir!

***Əbdülhəmid əbu Süleyman***
*15 yanvar 2002-ci il*

# Quranda evlilik münaqişələrinin həlli

İslam ümmətinə mədəni hücumların çoxaldığı, müsəlmanların vəziyyətinin pisləşdiyi, bu geniş coğrafiyada insan hüquqlarının qənaətbəxş olmadığı bir vaxtda islamı və islamda insan hüquqlarını müdafiə edənlərin fəaliyyətini doğru hesab etmək mümkündür. Söhbət o kəslərdən gedir ki, qadının döyülməsini həm kişinin hüququ, həm də evlilik münaqişələrində bir vasitə hesab edən nöqteyi-nəzərin doğurduğu heyrətlə mübarizə aparırlar. Günümüzün dünyasında həmin heyrəti doğuran səbəbləri başa düşmək heç də çətin deyildir.

Həm təhsil aldığım, ələlxüsus Qərb ölkələrində ali təhsilə yiyələndiyim, həm də "ABŞ və Kanada Müsəlman Tələbələr Birliyi", "İslam Gəncliyi Ümumdünya Forumu" kimi təşkilatlarda islam sahəsi üzrə yeniyetməlik fəaliyyəti ilə məşğul olduğum vaxtlardan islam haqda bir sıra mübahisəli suallarla qarşılaşmışdım. Lakin həmişə mən əqli-metodoloji yanaşma tərzim üzündən həmin mübahisəli suallara qənaətbəxş cavablar tapa bilirdim. Bu, həm də ona görə idi ki, hələ orta məktəbdə oxuduğumda Həzrəti Məhəmmədin peyğəmbərliyinin həqiqiliyinə yəqinliklə əmin olmuşdum.

Prinsipial intellektual-metodoloji əsasları olan yanaşma tərzi mənə imkan vermişdir ki, içimdə islam barədə şübhələr yaranmasın. Yəni, mövzu ilə əlaqəli təsəvvürlərim aydın idi, odur ki təmkinlə tədqiqat apara bildim. Çünki bir problemlə qarşılaşdıqda tədqiqat aparmaq, mühakimə və təhlil etmək lazım gəlir. Bir sözlə, beynimdə şübhələr yox idi, amma bəzi prob-

lemlər məni düşündürürdü. Şübhə və problemi bir-birindən fərqləndirmək lazımdır. Şübhə əngəldir, problem isə araşdırmağa, işləməyə, düşünməyə, əqli fəaliyyətə təkan verir.

Bu səbəbdən mənə hər dəfə islam haqqında mübahisəli suallar ünvanlandıqda bunu şübhə olaraq deyil, problem kimi nəzərdən keçirirəm; islamın universal koqnitiv metodikasına əsaslanaraq diqqətlə düşünür və araşdırıram. Həmin universal metod vəhy, kainat və zəka prinsiplərinin bir-biri ilə tamamlamasından ibarətdir. Belə ki problemə bələd olmadan, ona dair situasiya və qanunauyğunluqları başa düşmədən vəhyin nə demək istədiyini dərk etmək qeyri-mümkündür. Buna görə də mənim mühakimə metodum, əvvəlcə, mübahisəli mövzuya toxunmaq, onun məzmununu öyrənmək, sonra xassə və qanunauyğunluqlarını üzə çıxarmaq, daha sonra onu zaman və məkan baxımından təhlil etməkdir. Bununla da, mən mübahisəli mövzu haqda vəhyin nə demək istədiyini, nəyi məqsəd güddüyünü öyrənmiş oluram. Unutmaq olmaz ki, araşdırmaya əvvəlcə hökmləri öyrənməklə başlayan kimsələr əksər hallarda təqliddən xilas ola bilmirlər. Təqlid reallıq (gerçəklik) və xassələrə hərtərəfli münasibət bildirməyimizə əngəl törədir, onun şəriətlə əlaqəsini üzə çıxarmağımıza mane olur. Təqlidin tormozlama xüsusiyyəti, müqəddəsliklə əlaqəli mövzuları öyrənmədə qorxu və təlaş, reallıq və xassələri öyrənən sosial tədqiqatların olmamağı – bütün bunlar həqiqətin ortaya çıxmağına mane olur. Mən məlum universal metodun faydalılığına əsla şübhə etmirəm. Onun vasitəsilə məndə şəriətin prinsipləri, əxlaq də-

yərləri, insanın şərəf-izzəti ilə ziddiyyət əmələ gətirməyən sağlam təsəvvür formalaşır[1].

Nəticədə, mən islamda insan haqlarını müdafiə edənlərin həll axtarışlarının şahidi oldum. Onlar qadını zorakılıq və zülmdən qoruyacaq, din adına ona əziyyət verməyin mümkünlüyünü ifadə edən şübhəni dəf edə biləcək cavab axtarışındadırlar. Dünyanın bir çox ölkəsində qadına ikinci dərəcəli varlıq kimi baxılması, qadınların fiziki baxımdan kişilərdən zəifliyi, uşaqların maddi-mənəvi cəhətdən anaya bağlılığı, müsəlman cəmiyyətlərində hökm sürən yoxsulluq, savadsızlıq və geriliyin ən çox qadınlara təsir göstərməsi, ictimai zülm və despotizm səbəbi ilə bu cəmiyyətlərdə qadın hüquqlarının tapdalanması – bütün bunların fonunda məlum problemə cavab tapmaq olduqca mühümdür.

Digər məsələlərlə məşğul olduğum üçün qarşılaşdığım problemlərin heç də hər birinə münasibət bildirməyim mümkün olmamışdı. Belə problemlərdən biri də qadının "döyülməsi" problemi idi. Başım başqa problemlərə qarışdığından, qayğılarımın çoxluğundan sözügedən məsələyə diqqət yetirə, islamın ona baxışını üzə çıxara bilməmişdim.

Axır ki, fikri fəaliyyətə geri qayıtdım; əsas diqqətimi yenidən əsas problemə – ümmətin geriliyinin təzahür formaları və səbəbləri probleminə ayırdım. Məni qarşısına qoyduğu ülvi məqsədlərə hələ də çata bilməyən müsəlman mədəni

[1] Əbdülhəmid əbu Süleyman. İslama görə beynəlxalq münasibətlərin nəzəri-əsasları: islam fikri və metodologiyasının yeni istiqamətləri / Beynəlxalq İslam Fikri İnstitutunun nəşrləri, ərəb dilinə tərcümə edən: Nasir əl-Bərik. Ər-Riyad, 1993.

layihəsinin uğursuzluğunun səbəbləri çox maraqlandırırdı. Təsəvvür edirsinizmi min ildən artıqdır ki, bu sahədə davamlı cəhdlər fayda vermir. Söhbət "Din elmlərinin canlandırılması" və "Filosofların tutarsızlığı" adlı əsərlərində İmam Əbu Hamid əl-Qəzalinin (vəfatı – 1111-ci il) bəhs etdiyi mədəni layihədən gedir. Bu səbəbdən mən islam fikri və mədəni layihəsində "uşaqlıq dövrü" problemini araşdırmaq qərarına gəldim. Çünki "uşaqlıq dövrü" sözügedən layihənin görünməyən tərəfini əmələ gətirir. Həmçinin "uşaqlıq dövrü" bilik, mənəviyyat baxımından müsəlman şəxsiyyətin yenidən formalaşmasının başlanğıcıdır. Məhz belə şəxsiyyətlərdən ibarət ümmət təhlükələrə sinə gərə bilər.

"Uşaqlıq dövrü" haqda düşünmək diqqətimi digər problemə – ailə probleminə yönəltdi. Axı ailə uşağın kimliyinin formalaşmasında əsas rol oynayır. Ailə əsrimizin "Sina"sı rolunu oynayır. Bu da ona görədir ki, valideynlərdə öz qənaətləri və yanaşmaları ilə övladlarının xeyrinə çalışmaq instinkti (anadangəlmə istək) mövcuddur. Bu üzdən bizim bugün, Musa peyğəmbərin Sinasında olduğu kimi, ayrıca fiziki təcridxana təsis etməyimiz mümkün deyildir. O təcridxana ki, orada islahatçılar mövcud problemlərə tab gətirəcək, təşəbbüs və aktivlik üçün tələb olunan xüsusiyyətlərə yiyələnəcək yeni nəsillərin yetişdirilməsi ilə məşğul olacaqlar. Bəli, Musa peyğəmbər Misirdə kölə halına salınmış israiloğulları ilə bu cür davranmışdı; onları Misirdən çıxarmış, Sina torpağına gətirmiş, kölə, qorxaq və aciz nəsildən millət quracaq bacarıqlı nəsil çıxarmaq üçün yəhudiləri qırx il səhra və vadilərdə dolanıb gəzməyə məcbur etmişdi:

“Talut qoşunu ilə (öz yurdundan, Qüdsdən) ayrıldığı zaman (əsgərlərinə) dedi: “Allah sizi (axar) bir çay vasitəsilə imtahan edəcək. Kim onun suyundan içsə, o məndən (mənə tabe olanlardan) deyildir. Kim ondan dadmasa, dadsa da, bir ovucdan artıq içməsə, o məndəndir”! Lakin onların az bir qismi müstəsna olmaqla, (hamısı) o sudan içdi. O (Talut) və onunla birlikdə olan möminlər (çayı) keçdikdən sonra (düşmən qoşununu görüb) dedilər: “Bu gün bizim Calut (düşmən tərəfin hökmdarı) və onun qoşunu ilə vuruşmağa taqətimiz yoxdur”! (İçərilərindən) Allahın rəhmətinə qovuşacaqlarına (Allahın dərgahına qayıdacaqlarına) inanalar isə dedilər: “Neçə dəfə olub ki, az bir dəstə Allahın izni (iradəsi) ilə çox bir dəstəyə qalib gəlib! Allah səbr edənlərlədir!”

Onlar Calut və əsgərləri ilə qarşılaşdıqları zaman dedilər: “Ey Rəbbimiz, bizə bollu səbr və dizimizə (ayaqlarımıza) qüvvət ver! Bizə kafir qövm üzərində qələbə qazandır!”

Nəhayət, onlar Allahın izni (iradəsi və köməyi) ilə Calutu və qoşununu məğlub etdilər. Davud Calutu öldürdü. Allah Davuda həm hökmranlıq, həm də hikmət (peyğəmbərlik) verdi və ona istədiyini (zireh düzəltmək, quşların dilini bilmək, gözəl səslə oxumaq) öyrətdi. Əgər Allah insanların bir qismini, digər bir qismi ilə dəf etməsə idi, yer üzü fitnə-fəsada uğrayardı. Lakin Allah bütün aləmlərə qarşı lütfkardır” (əl-Bəqərə, 249-251).

Madam ki biz ailənin tərbiyəvi rolundan danışırıq, elə isə ailədaxili münasibətləri, uşaqların və gənc nəslin mənəvi, psixoloji və intellektual tərbiyəsində onun oynadığı rola təsir göstərən bütün məsələləri diqqətlə nəzərə almalıyıq.

Bu məqamda qarşıma ər-arvad, ata-ana, qadın-kişi, insan-insan, yeniyetmə-yeniyetmə münasibətlərində "vurma" (döymə) problemi çıxır.

## 1. Metodologiya

Mühakimə və tədqiqat metodikam budur ki, problemə bütün tərəfləri ilə toxunum, geniş prizmadan nəzər salım. Metodoloji dəqiqlik mənə diktə edir ki, birtərəfli baxış universal yanaşma tərzini üstələməsin, ayrı-ayrı faktlar ümumi prinsip və hökmləri sərf-nəzər etməsin. Həmçinin mən vəhyin təlimləri ilə varlıq aləmi arasında koqnitiv bağlılıq prinsipini diqqətlə nəzərə almışam. Tam yəqinliklə anlayıram ki, ilahi kəlamla insan təbiəti, zaman və məkana tabe faktlar arasında tam uyğunluq mövcuddur.

Bütün bunları nəzərə aldığım üçün tədqiqatıma islam nöqteyi-nəzərindən toxundum: insanın şərəf-izzəti, varis qılınmağı, cavabdehliyi, öz müqəddəratını müəyyənləşdirmək hüququna sahib olmağı məsələlərini başlıca prinsiplər olaraq seçdim. İslamın bu prinsipləri ilə səsləşməyən istənilən sosial münasibət forması bu dinin ruhunu, ülvi qayəsini əks etdirmir. Elə isə insan haqlarına, həyat imtahanındakı cavabdehliyinə uyğun düşməyən sosial münasibətlərdəki "qüsur" diqqətlə araşdırılmalıdır.

Həmçinin ailədaxili münasibətləri tədqiq edərkən "sevgi və şəfqət" anlayışı nəzərə alınmalıdır. Əgər ailədaxili münasibətlər sevgi və şəfqətlə tənzimlənmirsə, sağlam ailə meydana çıxmaz. Elə isə ailədaxilində sevgiyə, şəfqətə əngəl olan məsələlər diqqətlə öyrənilməlidir.

Məlumdur ki, islam dini insanlara bütün dövr və coğrafiyalarda fayda gətirəcək təlimləri əhatə edir. Elə isə zaman və məkan amilinin islamın məqsəd güddüyü faydanı reallaşdırmaq üçün atılan əməli addımlarda zaman və məkan tənzimlənməsinə təsir göstərməsi labüddür. Ələlxüsus Sünnədə (zaman və məkanla əlaqəli bəzi hədislər) və fiqhi irsdə (müəyyən dövr və vəziyyətlərdə cəmiyyətlə əlaqəli fiqhi hökmlər) zaman və məkan amilini nəzərə almaq lazımdır. Müəyyən vəziyyətləri, bu və ya digər situasiya ilə əlaqəli məsələləri diqqətdən qaçırmaq səhv olardı. Çünki belə vəziyyətlərlə əlaqəli hökmlərə mütləq və əbədi hökm kimi baxmaq, fərqli vəziyyətlərə eynilə tətbiq etmək doğru deyildir.

Bu metodoloji prinsipləri başa düşməyimizə həm də o kömək olur ki, bir tərəfdən, Allah vəhyi tədricən göndərmiş, digər tərəfdən də Peyğəmbər yerinə və zamanına görə fərqli-fərqli insanlara müxtəlif üsullarla müraciət etmişdir. Zamana və məkana uyğun olaraq, fitva və hökmlərin, fiqhi məzhəblərin fərqli olmağı faktı da bizə bir şeyi öyrədir: islam metodologiyası ictimai qanunvericiliyin bu tərəflərini nəzərə almışdır. Haqqında danışdığımız vəziyyətə ailə məsələsində əvvəlki dövr üləması (sələfin) məzhəblərinin, fitva və hökmlərinin fərqlənməsi faktı da daxildir. Hətta eyni dövrdə fərqli situasiyalar, şərait və adət-ənənələr məzhəblərə təsir göstərmişdi. Mədinə və Ərəbistan yarımadasında (burada qəbilə həssaslığı güclü idi, əsil-nəcabətlə hesablaşmaq ənənəsi vardı) meydana çıxmış malikilik İraqda yaranmış hənəfilik məzhəbindən fərqlənirdi. Məlumdur ki, İraq Babil, (Şumer), hətta Fars mədəniyyətlərinin möhkəmləndiyi coğrafiya idi. Bu mədəniyyətlərin ictimai münasibət-

lərə, fərdi bacarıqların inkişafına təsiri olmuşdur. Bu fərqlər, zaman və məkanla əlaqəli adət-ənənələr sözügedən iki məzhəbin nikahın şərtləri (qəyyumluq və bacarıq) ilə bağlı görüşlərində öz əksini tapmışdır. Onu da deyək ki, zaman və məkan amilinin fitvalara təsiri təkcə ayrı-ayrı məzhəblərdə deyil, həm də bir məzhəb daxilində özünü göstərmişdir. Məsələn, İmam Əhməd ibn İdris əş-Şafeinin məzhəbi İraq və Misirə görə dəyişikliyə uğramışdır.

Elə Quran ayələri vardır ki, zaman və məkan dəyişdikdə, insanın bilik dairəsi genişləndikdə onlarda yeni-yeni mənalar üzə çıxır. İnsan oğlu həmin ayələrdə əvvəllər ağlına gəlməyən mənaları kəşf edir. Bu göstərir ki, Quran zaman və məkan amilini sərf-nəzər etməyən müqəddəs kitabdır:

"Onun (Quranın) haqq olduğu onlara (müşriklərə) bəlli olsun deyə, Biz öz qüdrət nişanələrimizi onlara həm xarici aləmdə (üfüqlərdə, kainatda, göylərin və yerin ətrafında), həm də onların öz daxilində mütləq göstərəcəyik. (Ya Peyğəmbər!) Məgər Rəbbinin hər şeyə şahid olması (sənin dediklərinin doğruluğuna) kifayət deyilmi?!" (Fussilət, 53).

Elm inkişaf etdikcə Quranın ecazkarlığı bütün aydınlığı ilə üzə çıxır; biz ayələrdəki ifadə dəqiqliyinin, gizli mənaların şahidi oluruq. Zaman ötür, biliklər artır, aşkarlanan qanunauyğunluqlar, həqiqətlər Quranla çulğaşır. Məsələn, gündüz və gecənin bir-birinin içərisinə kürə formasında daxil olmağı, yerin hamarlanması, bundan da onun kürə şəklində olmağı nəticəsinin çıxmağı, onun digər ulduzlara, göy cisimlərinə oxşaması və s. dediyimiz kəşflərin təqdim etdiyi izahlardır. Qurandakı ecazkarlığı, əsrlər boyu bəzi ayələrin necə yozulduğunu

öyrənənlər zaman keçdikcə genişlənən biliklərin təfsirə təsirini yaxşı başa düşürlər.

Elə isə ailəyə dair fitva və yanaşmalarda keçmişə bağlı qalmaq, baş verən zaman və məkan dəyişikliklərini və bunun anlayışlara təsirini nəzərə almamaq səhv olardı. Bu, ictimai irsimizə, əvvəlki sosial qaydalara etinasız yanaşmaq deyildir. Demək istədiyimiz budur ki, tarixi təcrübəni dərk etmək üçün onu zaman və məkan kontekstində diqqətlə araşdırmalıyıq. Bu imkan verəcəkdir ki, lazımi dərsləri çıxaraq, vəhyin nəzərdə tutduğu məqsədləri həyata keçirək.

Zaman və məkan reallığımızı, baş verən dəyişiklikləri, yeni-yeni imkanları elmi şəkildə öyrənmək istəyiriksə, ümmətin vəziyyətinə elmi-tənqidi formada nəzər salmalıyıq. Situasiyanın nə üçün mürəkkəbləşdiyini, nələrin baş verdiyini, ümmətin enerjisini nəyin tükəndirdiyini, təşəbbüskarlığın, güc-qüvvətinə nə üçün bizdən uzaqlaşdığını, istibdadı, zorakılığı, özbaşınalığı, yoxsulluğu, savadsızlıq və geridəqalmışlığı nəyin doğurduğunu diqqətlə tədqiq etməliyik.

## 2. Cəzalandırma

Madam ki biz "döymə" mövzusunu və bundan irəli gələn təhqir, işgəncə məsələlərini öyrənirik, hər şeydən əvvəl, psixologiyanın başlıca qaydasını nəzərdən qaçırmamalıyıq: əziyyət, qorxu, psixoloji qorxutma mənfi vəziyyət yaradır, nifrət və etiraz doğurur. Sevgi, ehtiram və inam isə insanda müsbət abıhava formalaşdırır, ona fədakarlıq və təşəbbüskarlıq aşılayır. O da məlumdur ki, zorakılıq, alçaltma, qəyyumluq ənənəsi və is-

tibdaddan ümmət əziyyət çəkmiş, indi də çəkməkdədir. Belə ki bir çox cəmiyyətlərimizdə zorakılıq, müstəbidlik və hökmranlıq rəhbərlər və ağaların əlaltıları (nökərləri) ilə məhdudlaşmamış, həm də ümmətimizin "mədəniyyət"i halına gəlmişdir. Müəllim-şagird, böyük-kiçik, rəhbər-xalq, kişi-qadın münasibətlərində bu hökmranlığın şahidi oluruq. İctimai mənada bu hal "güclü" və "zəif" tərəflər arasında münasibətləri ifadə edir. Halbuki bu vəziyyət islamın qardaşlıq və əməkdaşlıq (həmrəylik) prinsipinə ziddir. İslam bildirir ki:

*Müsəlmanlar bir-birinə bənd edilmiş kərpiclər kimi olmalıdırlar...*

*Müsəlmanlar bir bədən kimidirlər; bu bədənin bir əzası (xəstəlikdən) şikayət edərsə, digər əzalar qızdırma və yuxusuzluğa tutular...*

*Müsəlman müsəlmanın qardaşıdır: ona zülm etməz, onu alçaltmaz, dar ayaqda qoymaz. Müsəlman qardaşını təhqir etmək insana şər olaraq bəsdir...*

*Bir müsəlmanın varına, canı və şərəfinə təcavüz etmək başqa müsəlmana haramdır...*

*İnsanlara rəhm etməyənə Allah mərhəmət göstərməz...*

*Allah bəndələrindən ancaq rəhimlilərə mərhəmət edər...*

Elə isə "xidmətçi"si və "kəniz"inə vuran kimsə vurulmaqdan xilas ola bilərmi?!

*Mömin lənət etməz, tənə yağdırmaz; o, əxlaqsız və pozğun da deyildir...*

*Möminlərin iman sarıdan ən kamili əxlaqı ən gözəl olandır. Sizin ən yaxşınız zövcələri ilə yaxşı keçinəninizdir...*

*Peyğəmbərimiz (Ona Allahın xeyir-duası və salamı olsun!) həyat yoldaşını vurmuş bir şəxsə qəzəblənərək demişdi: "Sizdən biri öz zövcəsini köləni döyürmüş kimi hey döyür, sonra da utanmadan ona sarılır... Məhəmməd ailəsinə ərlərindən şikayət edən çoxlu qadınlar gəlmişdir. Həmin kişilər yaxşı insanlar deyildir"...*

Nümunə sayılan Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* əxlaqına həlimlik, mehribanlıq və şəfqət xas idi.

*Peyğəmbər heç kəsə: nə bir qadına, nə bir xidmətçiyə... əl qaldırmamışdı. Onun əli Allah üçün cihadda qalxardı...*

Biz islamdakı belə humanist prinsiplər əsasında "vurma (döymə)" probleminə və onun ailədaxili evlilik və valideynlik münasibətlərindəki yerinə nəzər salmalıyıq ki, problemi obyektiv şəkildə başa düşək. Həmçinin bizi aşağıdakı suala cavab tapmaq maraqlandırır: Ümumiyyətlə və ələlxüsus bu dövrdə islam ailə təsisatının bina edildiyi əsil ailə qaydaları hansılardır? O qaydalar ki, ailəni möhkəmlədən, onu sağlam müsəlman övladların yetişdirildiyi, dövrün problemlərindən mühafizə edildiyi təhlükəsiz mənəvi-psixoloji yuvaya çevirən "sevgi və şəfqət"i təmin edir.

Quran ayəsində işarə edildiyi üçün "döymək" məsələsi ailədaxili və bəşəri münasibətlərdə ciddi problem sayılır. Bu ayənin ənənəvi-tarixi izahında "şapalaqlamaq", "üzə vurmaq", "əllə döymək", "çubuqlamaq"... və bundan irəli gələn ağrı-acı, alçalma duyğusu göstərilir. Həmin izahlarda ağrı-acının, fiziki əziyyətin, alçalmanın dərəcəsi nəzərə alınmır. Bu məsələ ilə əlaqəli müxtəlif fitvalar vardır. Məsələn, bəzi fitvalarda misvakla (indiki dövrdə diş fırçası və ya qələmlə) döyməkdən söz

açılır[1]. Bu nöqteyi-nəzərə görə, "döymək" alçaltmaq və işgəncə verməyi deyil, məzəmmətləməyi, narazılığı ifadə edir. Elə fitvalar da vardır ki, "döymə" dedikdə qırx çubuq və ya şallaq vurmağı nəzərdə tutur və bildirilir ki, yaralamaq və ya öldürmək qadından alınan ən yaxşı qisasdır[2].

"Döymək" mövzusundan bəhs edən ayə Quranın "Nisa" surəsinin 34-cü ayəsidir. Uca Allah buyurur:

"Kişilər qadınlar üzərində ixtiyar sahibidirlər (onların hamisidirlər)[3]. Bu, Allahın onlardan birini digərinə üstün etməsi

---

[1] Əta "əziyyət etmədən döymək" haqda İbn Abbasdan soruşmuş, "misvakla vurmaq" cavabını almışdır.

[2] Bax: Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbəri. Came əl-bəyan fi təfsir əl-Quran; Nizaməddin əl-Həsən ibn Məhəmməd ibn Hüseyn əl-Qummi ən-Nisaburi. Təfsir qəraib əl-Quran və rəğaib əl-Furqan. Beyrut: "Dar Lübnan", IV cild, V cüz, səh. 40-44.

[3] Ayənin ərəbcə mətnindəki "qəvvam" sözü "qamə" kökündən olub "kiminsə dolanışığını boynuna götürmək" deməkdir (Bax: Təhzib lisan əl-ərəb li ibn Mənzur). Həmçinin "qəvvam" dedikdə "ailəsinin işlərini görən" nəzərdə tutulur (Bax: Muxtar əs-sihah). (Eyni kökdən olan) "qəyyim" sözü "işləri yoluna qoyan, idarə edən" deməkdir (Bax: əl-Mö`cəm əl-vəsit). "Qəvvam" (cəmi: qəvvamun) bir işdə öhdəçi olan, bir işi görməyə bacarığı çatandır" (Bax: əl-Müncid fil-luğə vəl-e`lam, 1997).

Əgər "qəvvamlıq" dolanışığı boynuna götürmək, işləri sahmana salmaq, bir işi görmədə öhdəçi olmaqdırsa, ailənin işlərini görmək, anaya öz vəzifəsini icrada və övladlarını tərbiyədə kömək göstərmək baxımından kişinin mühüm və başlıca rol oynadığını başa düşmək son dərəcə əhəmiyyətlidir. Allah kişiyə bu bacarığı vermişdir. Yəni, Allah kişini həm də öz ailəsinə kömək edəcək gücdə yaratmışdır. Bu səbəbdən liderlik kişiyə aiddir. Ailə və onda atanın – kişinin və ananın – qadının rolu elə tənzimlənib ki, kişi ailəsinin, ana və uşağın böyüyü sayılır, onlara hamilik edir. Ana və övladların atanın himayəsində olmağı fitri cəhətdən atanı hərəkətə keçirir: fədakarlıqla, səmimiyyətlə, coşqunluqla onlara böyüklük edir. Bunun əksi-

və (kişilərin) öz mallarından (qadınlar üçün) sərf etməsinə görədir. Əməlisaleh qadınlar (ərlərinə) itaət edib Allahın himayəsi sayəsində gizli şeyləri (ərlərinin sirlərini, mal-dövlətini, namus və şərəfini) qoruyub saxlayırlar. (Ey kişilər!) Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin, (yola gəlməzsə) onlardan yatağınızı ayırın və **"döyün"**! Sizə itaət etdikdə isə daha onlara (əziyyət vermək üçün) başqa yol axtarmayın. Əlbəttə, Allah ucadır, böyükdür!

(Ey möminlər!) Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, o zaman kişinin adamlarından bir nəfər və qadının adamlarından da bir nəfər münsif (vasitəçi) təyin edib (onların yanına) göndərin. Əgər onlar (bu iki vasitəçi ər-arvadı) barışdırmaq istəsələr, Allah da onların köməyi olar. Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər işdən) xəbərdardır!" (ən-Nisa, 34-35).

---

ni iddia etmək və ya alternativ irəli sürmək ailə qurumunu dağıtmaq deməkdir. Nəticədə, ana və uşaqlar hədsiz çətinliyə düşürlər. Ana və övladlarının üz-üzə gəldikləri maddi və mənəvi (psixoloji) çətinliklər isə onların rifahını, əmin-amanlığını təhlükəyə atır, uşaqların kimliyinə dağıdıcı zərbə vurur.

Biz ailə institutunun dağıldığı cəmiyyətlərdə bunun şahidi oluruq; ailələr atalardan məhrum olur, bu ailələrin uşaqları ictimai təhlükəsizlikdən kənarda qalır, sapqınlıq, cinayət və korrupsiyaya alət olurlar.

Geniş yayılmış səhvlərdən biri budur ki, digər qurumlardakı rolları əsas götürülməklə kişi və qadının ailədəki rolu heç sayılır. Halbuki başqa sahələrdə onların ayrı-ayrılıqda fərdi bacarıqları əsas götürülür. Elə vəzifələr vardır ki, cinsindən asılı olmayaraq hər kəsin bacarığına uyğundur.

Qeyd edək ki, analıq vəzifəsi ilə yanaşı, qadının digər işlərlə məşğul olmağı onun əsas vəzifəsinə – analıq vəzifəsinə xələl gətirməməlidir. Cəmiyyətin olum-qalımı üçün zəruri sayılan analıq heç nəyə qurban edilməməlidir.

Bu ayəni başa düşmək üçün onu ailə qurumunun ümumi mahiyyəti daxilində nəzərdən keçirməliyik. Bununla da, şəriətin məqsədləri əsasında bu ayədə nəyin nəzərdə tutulduğunu düzgün şəkildə öyrənmiş olacağıq. Həmçinin Uca və Pak Allah buyurur:

“Ey insanlar! Sizi tək bir şəxsdən (Adəmdən) xəlq edən, ondan zövcəsini (Həvvanı) yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun! (Adı ilə) bir-birinizdən (cürbəcür şeylər) istədiyiniz Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən həzər edin! Şübhəsiz ki, Allah sizin üzərinizdə gözətçidir!” (ən-Nisa, 1);

“Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda (dostluq) sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda (bu yaradılışda) düşünən bir qövm üçün ibrətlər vardır!” (ər-Rum, 21);

“Qadınlarınızı (rici talaqla) boşadığınız və onların gözləmə müddəti başa çatdığı zaman onları ya xoşluqla saxlayın, ya da xoşluqla buraxın. (Əziyyət və) zərər vermək məqsədilə haqlarına təcavüz edib onları saxlamayın! Hər kəs bunu etsə, şübhəsiz ki, özünə zülm etmiş olar. Allahın ayələri (hökmləri) ilə oynamayın (onlara istehza etməyin). Allahın sizə verdiyi nemətləri, öyüd-nəsihət üçün göndərdiyi Kitabı (Quranı) və hikməti xatırlayın! Allahdan qorxun və Allahın, həqiqətən, hər şeyi bildiyini anlayın!” (əl-Bəqərə, 231);

“Ey iman gətirənlər! Əgər mömin qadınlarla evlənib onlara toxunmadan əvvəl talaqlarını versəniz, artıq onlar üçün sizə gözləmə müddəti saymağa ehtiyac yoxdur. (Onları evlərinizdə

saxlayıb gözləmə müddətini başa vurmağa məcbur etməyin. Aranızda yaxınlıq olmadığı üçün nə vaxt istəsələr, o vaxt da başqasına ərə gedə bilərlər). Belə olduqda onlara bir şey (mehrin yarısını və ya bir az mal) verib gözəl tərzdə sərbəst buraxın!" (əl-Əhzab, 49);

"(Rici) talaq vermə (boşama) iki dəfə mümkündür, ondan sonra yaxşı dolanmaq (qadını yaxşı saxlamaq), ya da xoşluqla ayrılmaq (buraxmaq) gərəkdir. (Ey kişilər!) Onlara (qadınlarınıza) verdiyinizdən (kəbin haqqından, mehrdən) bir şey tələb etməniz sizə halal olmaz. Bu yalnız kişi ilə qadının Allahın (ər-arvadlıq) haqqındakı hökmlərini yerinə yetirə bilməyəcəklərindən qorxduqları zaman mümkündür. (Ey şəriət hakimləri!) Əgər onların (ər-arvadın) Allahın hökmlərini yerinə yetirməyəcəklərindən siz də qorxsanız, arvadın (kəbin haqqından) ərinə bir şey verməsində heç biri üçün günah yoxdur. Bunlar Allahın hədləridir (hökmləridir). Onlardan kənara çıxmayın. Allahın hədlərindən kənara çıxanlar, əlbəttə, zalımlardır." (əl-Bəqərə, 229).

Əgər biz bu ayələrə şəriətin ümumi məqsədi və Peyğəmbər nümunəsi əsasında nəzər salsaq, görəcəyik ki, evlilik münasibətlərinin kökündə sevgi, mehribanlıq, şəfqət və qayğıkeşlik dayanır; bu münasibətləri həmişə sevgi, şəfqət və xeyirxahlıq idarə edir.

İndi biz anlayırıq ki, incitmək və alçaltmaq mənasına gələn "döymək" barədə suallar nə üçün yaranır. Ər-arvad arasında ülfəti və sevgini möhkəmlətmək, ailədaxili münaqişələri həll etmək baxımından "döymək" optimal çıxış yolu təsəvvürü bağışlamır. Özü də elə bir vaxtda ki, müasir müsəlman cəmiy-

yətlərində sosial münasibətlərin vəziyyəti, bəzi qadınların psixoloji və maddi asılılığı, sərtliyə tuş gəlmələri nəzər cəlb edir. Ailənin başçısı olduğu üçün kişinin hakimiyyətini mütləqləşdirən bəzi ənənəvi fitvalar zorakılığa haqq qazandırır. Halbuki unudurlar ki, ailə qarşılıqlı sevgiyə, köməkləşmə və həmrəyliyə əsaslanmalıdır. Dini mətnlərin mənasını düzgün başa düşmək lazımdır; qadını, eləcə də ailəni əmtəə halına gətirmək üçün ayə və hədislərdən sui-istifadə yolverilməzdir.

Keçmişdə dünyagörüşü və mövcud şərait nəticəsində qadının ailədaxili rolu böyümüş, sosial fəaliyyəti isə məhdudlaşmışdı. Odur ki əsas məsuliyyət kişinin üstünə düşürdü. Xüsusən oturaq həyat tərzinin hakim olduğu mühitlərdə kişilər ailənin işlərini idarə edir, daha çox səlahiyyətə sahib olurdular. Çünki ailəni dolandırmaq və qorumaq üçün möhkəm biləyə ehtiyac vardı. Həmçinin ailənin tələbatları o həddə idi ki, qadın əsas enerjisini evinə, əri və uşaqlarına sərf edirdi. Bu üzdən o, sosial həyata təmas edə bilmir, buna vaxtı da qalmırdı. Cəmiyyət də bu səbəbdən, ailədaxili münasibətlərdə kişinin hökmranlığını qəribə qarşılamırdı. Amma indi vəziyyət dəyişib. Elə vasitələr, elə bacarıqlar, elə biliklər yaranıb ki, qadının qarşısında yaradıcılıq imkanları açılıb; qadın müstəqil şəkildə maddi vəziyyətini düzəldə bilir. Bütün bunlar ailə üzvlərinin funksiyalarına təsir göstərib, imkanları və vəziyyəti dəyişib. Elə isə müasir dövrdə ailə münasibətlərinin real vəziyyətinə yenidən nəzər salmaq lazımdır. Ona görə ki, gərginlik və tənəzzül davam etməsin, ailə üzvlərinin nəzərində müəyyən anlayışlar möhkəmlənsin. Bu anlayışlar ailənin hər bir üzvünə imkan ve-

rəcəkdir ki, ailə daxilində öz vəzifəsini digər üzvlərlə bilikdə yerinə yetirsin.

Bu tədqiqatı apararkən bir sıra problemlərlə qarşılaşıram. Məsələn, Quran kontekstində "dərb" (الضرب) sözünün mənasını araşdırıram. Əgər bu söz "incitmə, fiziki əziyyət, mənən alçaltma" mənalarını verirsə, böyüklər arasında münasibətin forması kimi çıxış edirsə, qadını kişinin istəyinə tabe etmək, onunla yaşamağa məcbur buraxmaq vasitəsi olaraq başa düşülürsə, onda elə çıxır ki, müsəlman qadın ərindən imtina edib, birtərəfli şəkildə ailəni parçalaya bilməz (Bəzi dinlər və mədəniyyətlərdə bu hala təsadüf edilir). Odur ki o, ərinin istəyinə tabe olacaq, onunla yaşamağa məcbur qalacaqdır.

Amma biz yaxşı bilirik ki, ailəni sevgi və şəfqət üzərində quran islam şəriətində vəziyyət belə ola bilməz. Şəriət hər bir vasitəyə əl atır ki, ailə üzvləri arasında bağlılıq, əməkdaşlıq və həmrəylik yaransın, onların kimliyi qorunsun. Buna görə də islamda ailə üzvlərinin münasibətlərində ixtiyarilik vardır, məcburiyyət, hökmranlıq, zorakılıq mövcud deyildir. Həm ər, həm də arvad, tərəflərdən biri digəri ilə yaşamaq istəmirsə, ailəni tərk etmək, evliliyə son qoymaq haqqına sahibdir. Çünki bu addım, heç şübhə yox ki, nifrətə, məşəqqətə əsaslanan münasibətlərdən yaxşıdır. Əgər kişi arvadı ilə yaşamaq istəmirsə, boşamaq hüququndan istifadə edir. Qadın da əri ilə yaşamaq istəməzsə, ərindən imtina edə bilər. İslamda qadının ərindən boşanması "xülə" adlanır. Əri istəyərsə, qadın mehri ona qaytarmaqla boşana bilər. Bu ona görədir ki, var-dövlət qadında qalmasın. Çünki var-dövlət sevgisi ailənin dağılmasına səbəb olur[1].

[1] "Xülə" ayəsində fidyənin miqdarı göstərilməsə də, Peyğəmbər onun mak-

Elə isə "döymək" əri ilə yaşamaq istəməyən qadını yola gətirmək vasitəsi sayıla bilməz. Hər bir halda, "döymək" ər-arvad arasında sevgi yaratmağın münasib vasitəsi deyildir. İsti münasibət yaratmaq, qarşı tərəfin könlünü almaq baxımından döymək işə yaramır.

"Nisa" surəsində, əri ilə yaşamağı rədd edib, itaətsizlik göstərən arvadla ərinin arasını düzəltməyi məqsəd güdən ayələrdəki ardıcıllığı iki yerə bölə bilərik:

Birinci mərhələdə itaətsizlik, ər və arvad arasındakı münaqişə üçüncü tərəfin müdaxiləsi olmadan aradan qaldırılması haqda danışılır. Bu, üç pilləli həll planıdır:

1. "...qadınlara nəsihət edin...";
2. "...(yola gəlməzsə) onlardan yatağınızı ayırın...";
3. "...vədribu"!.."

İkinci mərhələ. Əgər kişi üçüncü tərəfin müdaxiləsi olmadan münaqişəni həll edib uyğunlaşma yarada, həyat yoldaşını itaətə (itaət evlikdə əsas məsələlərdəndir) qaytara bilməzsə, hər

---

simum miqdarını müəyyənləşdirmişdir. Bu, ərin verdiyi mehr miqdarındadır. Məsələn, Peyğəmbər boşanmaq istəyən qadına demişdi: "Ona (ərinə mehr olaraq aldığın) bağını qaytarırsanmı?" Bundan artıq olmaz. Çünki artıq miqdara icazə vermək var-dövlət səbəbi ilə ailənin dağılmasına səbəb ola bilər. Çünki ər həyat yoldaşını incitməklə, ona əziyyət verməklə özündən narazı salıb boşanmaya sövq edə bilər. Qadın da məcbur qalıb boşanmaq istəyər və bunun üçün hər şeyini verməyə məcbur qalar. Deməli, var-dövlət ərə və ya həyat yoldaşına ailəni dağıtmaq bəhanəsi verməsin deyə fidyənin miqdarı mehrin miqdarı qədər müəyyənləşdirilib. Ərə verdiyi mehrindən daha çox təzminat ödəməyi nəzərdə tutan istənilən qərar konkret səbəblərə görə çıxarılmalıdır. Qadının əri ilə yaşamaq istəməməsi burada səbəb deyildir. Belə konkret səbəblərə görə ər təzminat tələb edə bilər. Əslində bu qayda təkcə kişilərə deyil, qadınlara da şamildir.

iki tərəf valideynlərinə müraciət edirlər. Ona görə ki, ailələri bir qərara gəlmək üçün onların probleminə müdaxilə etsinlər, münaqişəni, səbəblərini öyrənsinlər, onlara nəsihət versinlər, yol göstərsinlər, barışmaları üçün kömək etsinlər:

"(Ey möminlər!) Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, o zaman **kişinin adamlarından bir nəfər və qadının adamlarından da bir nəfər münsif** (vasitəçi) təyin edib (onların yanına) göndərin. Əgər onlar (bu iki vasitəçi ər-arvadı) barışdırmaq istəsələr, Allah da onların köməyi olar. Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər işdən) xəbərdardır!" (ən-Nisa, 35).

Məlum olur ki, Qurandakı bu ardıcıllıq, hər bir halda, tərəflərin barışdırılmasını, psixoloji əsaslarla, xüsusi ardıcıllıqla münaqişənin həllində onlara kömək etməyi məqsəd güdür. Buna görə də Quran ərə əmr edir ki, itaətsizlik göstərən zövcəsi ilə baş-başa otursun, ona öyüd-nəsihət versin. Bu məqamda ər meydanda olmalıdır, təşəbbüs göstərməlidir, aranı düzəltməyə çalışmalıdır. O, zövcəsinə ürəyindəkiləri danışmalı, xarakterin doğurduğu fərqlilikləri ona başa salmalı, bəlkə də, bilmədiyi məsələləri (ərin hüquqları və s.) onun diqqətinə çatdırmalıdır.

Deməli, problemin həllində ilk addım olaraq, dialoq və xatırlatma seçilməlidir. Çünki problem ər-arvad problemidir və qadın bəzən qadınlıq silahından, ərinin zərif cins qarşısındakı zəifliyindən istifadə edir.

Əgər qadın ərinin öyüd-nəsihətinə ya nadanlığından, ya da naz-qəmzə ilə qulaq asmazsa, ər sonrakı mərhələyə adlamalıdır. Bu mərhələ söz və nəsihətdən konkret **hərəkətə keçmək** mərhələsidir: **"...(yola gəlməzsə) onlardan yatağınızı ayı-**

**rın!**” Bu, ona görədir ki, qadın ərinin zəif nöqtəsini – ona möhtac olduğunu, etiraz edərsə, səbirsiz davranacağını bilir. Amma görəndə ki, əri onunla yatmaqdan imtina edərək yatağını ayırıb, sövqi-təbii olaraq məsələnin ciddiliyini anlayır. Bu zaman qadınlar çox vaxt “üz döndərmək”, “hövsələdən çıxartmaq” oyunundan imtina edir və başa düşürlər ki, münasibətlər təhlükədədir; inadkarlıq və hövsələdən çıxarmaq bu əlaqələrə son qoya bilər; odur ki güzəştə gedib, yola gəlirlər. Bununla da ər və arvad arasında sevgi (həm də şəfqət) bərpa olunur.

Yox, əgər qadın öz tərsliyində davam edərsə, problem daha narahatedici forma alır; ailəni qəsdli və ya qəsdsiz şəkildə dağıda biləcək təhlükə ifadə edir. Evlilik bu vəziyyətdə davam edə bilməz. Hər iki tərəf onların ailə həyatını hansı təhlükənin gözlədiyini – evliliyin başa çata biləcəyini dərk etməlidir.

Sual yaranır: Nə etmək lazımdır ki, tərəflər təhlükənin doğura biləcəyi nəticəni dərk etsinlər? Nə etmək lazımdır ki, aralarındakı münaqişə ailədən kənara çıxmasın, problemin həlli üçün üçüncü tərəfə müraciət olunmasın?

Beləliklə, ailədaxili münaqişənin həllində növbəti addım atılır: “**vədribu!**”.

“...**vədribu!** Sizə itaət etdikdə isə daha onlara (əziyyət vermək üçün) başqa yol axtarmayın” (ən-Nisa, 34).

Biz bunu böhranlı vəziyyət yarandıqda ər və arvadın barışdırılması çərçivəsində başa düşməliyik. Öyüd-nəsihətə, yatağını ayıran ərin qəzəblənməsinə baxmayaraq, ər və arvad arasında münaqişə dərinləşərsə, arvad asilik göstərib onunla yaşamaq istəməzsə, barışıq üçün növbəti addım atılır.

## 3. "Darabə" feli

Ayədəki "darabə" nə mənaya gəlir? Görəsən, burada cismən ağrı və alçaltmaya səbəb olan, qadını zorla əri ilə yaşamağa məcbur edən şapalaqlamaq, vurmaq, kötəkləmək, şallaqlamaq və sairəmi nəzərdə tutulur? Əgər belədirsə, onda bu cür itaət etdirmənin bir mənası vardırmı? İşgəncə və alçaltma ilə müşayiət olunan itaət etdirmə ər və arvad arasında yenidən sevgi və mərhəmətin yaranmasına səbəb olarmı, dostluqlarını artırarmı, iffət duyğusunu gücləndirərmi, ailəni dağılmaqdan qoruyarmı?

Kötəkləməni, fiziki və mənəvi işgəncəni ifadə edən döymək qadında ailədə qalmaq istəyi yaradarmı? Yəni, döymək öz hüquqlarını bilən, insan kimi şərəf-izzətini dərk edən müsəlman qadını ərinin əsiri olmağa, zorakılığına dözməyə məcbur edən vasitədirmi; yoxsa qadının bu vəziyyətdən xilas olmaq üçün başqa çıxış yolu vardır? İslam ona bu imkanı yaratmışdırmı?

Əgər "darabə" fiziki və mənəvi əziyyət mənasında işlənmirsə (bəzi kişilər qadına qarşı zorakılığa haqq qazandırmaq üçün Qurandakı bu sözün lüğəvi mənasını əsas götürürlər; onlar maddi ehtiyacı və övladının gələcəyini düşündüyü üçün qadını dözməyə məcbur edən şəraitdən də sui-istifadə edirlər), onda bu, ailə qurmaq və sağlam münasibətlər yaratmada Quranın təqdim etdiyi stimullarla səsləşir, qadının sevgisini qazanıb, onu ailədə saxlamaqda kişiyə kömək edir. Yox, belə deyilsə,

onda Quran "vədribu!" əmri ilə ərə qadını vurmaq, onu özünə alçaltmaqla tabe etmək hüququmu vermişdir?[1]

Madam ki qadının boşanmaq haqqı vardır, onda, heç şübhəsiz, ər-arvad münasibətlərində, birgəyaşayışa qadını məcbur etmədə döymə aktının bir mənası yoxdur. Çünki döymək ailə bağlarını zəiflədir, ailənin dağılmasını sürətləndirir. Elə isə bu mövzunu hərtərəfli araşdırmaq, həqiqi mahiyyətini üzə çıxarmaq olduqca vacibdir.

---

[1] İbn Kəsir "Nisa" surəsindəki "qəvamə" ayəsinin təfsirində Həsən əl-Bəsriyə istinadən rəvayət edir ki, ayənin nazil səbəbi belə olub: "Bir qadın gəlib Peyğəmbərə *(Ona Allahın xeyir-duası və salamı olsun!)* şikayət edir ki, əri onu kötəkləyib. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* "qisas" dedi. Bu vaxt Qüdrətli və Böyük Allah "Kişilər qadınların hamisidirlər" ayəsini endirdi. Qadın qisas almadan geri qayıtdı".
Başqa bir rəvayətdə deyilir: "Biz bir şey istədik, Allah başqasını istədi. Allahın istədiyi daha yaxşıdır".
Əgər hədis səhih olsa da – zənnimizcə, hədis zəifdir. Çünki bu tədqiqatı apararkən, ona nə "Nəsai"də, nə "Məacim"lərdə, nə də ki "müsnədlər"də rast gəlmişik, – döyməyə legitimlik qazandırmır. Hədis o mənaya gəlir ki, döymə, fiziki zorakılıq hadisəsi baş verərsə, ailədə bunun həlli qisas deyildir. Çünki qisas və qisasa oxşar işlərdə aləmə car çəkmək, elan vermək, alçaltmaq vardır. Bu, həll yolu deyildir, elə isə ər və arvadı barışdırıb, uşaqları himayə edə bilməz. Çünki belə vasitələr əksər hallarda ayrılığa və boşanmalara səbəb olur. Ayə heç bir halda kötəkləməyə, işgəncəyə, ağrıtma və alçaltmağa əsas vermir. Bu, başqa məsələdir. Həmin işdə Peyğəmbərin (Ona Allahın xeyir-duası və salamı olsun!) duyğuları aşkar şəkildə inkar ifadə edir. Ayədən onu başa düşmək mümkündür ki, əgər kişi qadına vurmaqla zorakılıq edərsə, onların arasını düzəltmək qisas yolu ilə baş vermir. Çünki qadının qisas almağı barışa deyil, ayrılığa aparıb çıxaracaqdır. Zərər cinayət həddində deyilsə və evliliyin davam etməsi qeyri-mümkün hala gəlibsə, ayrılıq qazının hökmü ilə olur. Əgər zəruridirsə, evlik davam etməlidir və bu, yaxşılıqla, qarşılıqlı sevgi ilə, tərəflərin, xüsusilə uşaqların gələcək maraqlarını qorumaqla mümkündür.

"Darabə"dən söz açan Quran kontekstinə nəzər salsaq, görəcəyik ki, ayələrdəki ardıcıllıq ər və arvadı barışdırmaq, bir-birinə yaxınlaşdırmaq üçün "addımlar" təqdim edir. Hər bir addım ayrılığa son qoyub, sevgi bağlarını möhkəmlətmək, isti münasibəti təmin etmək üçün ən yaxşı vasitəni ifadə edir. Özü də bu addımlar ya barışmaq, ya da ayrılmaq barədə hökm versin deyə üçüncü tərəfə müraciət etməyə məcbur qalmaq mərhələsindən əvvəl atılır.

Əgər zorakılıq və əziyyətin (işgəncənin) evlilik münasibətlərində, ailədaxili problemlərin həllində yeri yoxdursa, onda ər-arvad arasındakı münaqişənin aradan qaldırılmasında bir vasitə olaraq Quranın nəzərdə tutduğu "darabə" nədir? Görəsən, söhbət müstəqim (birbaşa), yoxsa məcazi mənada "darabə"dən gedir? Onu da deyək ki, Qurani-Kərimin müxtəlif ayələrində "darabə" feli təsirli və təsirsiz formalarda işlənmişdir. Məsələn, "Allah misal çəkir" ayəsində[1] fel təsirli, "Səfərə çıxdığınız zaman..." ayəsində[2] isə "da-də" (ərəbcə: fi) ön qoşması ilə işləndiyindən təsirsizdir.

Əgər İbn Abbasın *(Allah ondan razı qalsın!)* izahını əsas götürsək ki, söhbət misvakla vurmaqdan gedir, onda bu, cismən və mənən incitmək, əziyyət vermək, cəzalandırmaq mənasında "darabə" deyildir. Lakin "fel, akt" "misvakla toxunmaq" kimi başa düşülən vurmaq ciddiyyət, narazılıq, qəzəb, qadından üz çevirmək, onu özündən uzaqlaşdırmaq ifadə edir. Bəli, bu, əllə toxunmağın əksidir. Əllə toxunmaq adətən sevgini, ərköyünlüyü göstərir. Belə izah pis deyildir; ülfət və birgəyaşayışın birləşdirdiyi cüt-

---

[1] "ən-Nəml" surəsi, 76-cı ayə.

[2] "ən-Nisa" surəsi, 101-ci ayə.

lüklər arasında tələb olunan ehtiramı zədələmir. Habelə bu izahda işgəncə, alçaltma, zorakılıq mənasında vurmaq yoxdur. Bundan qabaq demişdik ki, bəzi fəqihlər vuranda iyirmi və ya qırx dəfə vurmaqdan, bədənin bir və ya bir neçə yerini vurmaqdan söz açırlar[1].

---

[1] Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbəri. Came əl-bəyan fi təfsir əl-Quran; Nizaməddin əl-Həsən ibn Məhəmməd ibn Hüseyn əl-Qummi ən-Nisaburi. Təfsir ğəraib əl-Quran və rəğaib əl-furqan, IV cild, V cüz, səh. 40-44. Həqiqət budur ki, "əziyyətsiz vurma" sözü Təbərinin təfsirində ər-arvad münaqişəsi kontekstində işlənməyib. Bu söz başqa kontekstdə – əxlaqsızlıqla bağlı kontekstdə işlədilmişdir. Və obrazlı şəkildə belə ifadə olunmuşdur: "Əgər yatağınızı başqaları ilə bölüşərlərsə...". Bu başqa mövzu olub, ər-arvad münasibətlərində əmanəti, şərəf-namusu zədələyir. Xüsusən də, ər və arvadın, valideyn və uşaqların bunu car çəkməsi çox çətindir. Çünki belə bir işin dağıdıcı sosial zərərləri vardır. Bu zərər təkcə ər və arvadı deyil, valideynlərini, uşaqları, ailələrini "vurur". Buna görə də din sosioloqları sözügedən problemin dini-sosial tərəflərini müxtəlif situasiyalara uyğun şəkildə araşdırmalıdırlar. Problemə hərtərəfli baxış imkan verəcəkdir ki, ailə qorunsun, toxunulmaz dəyərləri (iffət, şərəf) əsas götürülsün, fərqli vəziyyətlərdə istifadə olunacaq düzgün islah vasitələri müəyyənləşdirilsin, söhbətin hansı tərəflərdən getdiyi aşkara çıxarılsın. Onu da qeyd edək ki, "əziyyətsiz vurma" haqqında Vida həcci hədislərində söz açılıb. Həm konteksti, həm də Peyğəmbərin kimə müraciət etdiyini nəzər aldığımız zaman bu hədisin müxtəlif versiyalarını bir bütün olaraq götürməliyik, Quran prizmasında araşdırmalıyıq. Çünki həmin versiyalarda (ravilərdən irəli gələn) "illət" (qüsur), "sözdüşümü", "yaddançıxarma" və "zəiflik" ola bilər. Müslimin, Tirmizinin, İbn Macə və İmam Əhmədin rəvayət etdikləri və "əziyyətsiz döymə"dən bəhs edən bu hədislərdə müşahidə etdiyimiz odur ki, məlum qaydada vurma qadın əxlaqsızlıq etdikdə, ya da obrazlı desək "yatağınızı başqaları ilə bölüşdükdə" baş verir.
Həmçinin bu hədisin ("Vida həcci" hədisinin) bütün versiyalarını araşdırdıqda görürük ki, bəzi versiyalarda müəyyən əlavələr mövcuddur. Fikri-

İbn Abbasın izahı "mötədil" olsa da, onda elə "kölgəli" məqamlar vardır ki, keçmişdə düzgün başa düşülmədiyindən din adına qadına əziyyət edilmiş, onun döyülməsinə bəzi fitvalarla bəraət qazandırılmışdır. Elə isə dərk və həll elə olmalıdır ki, haqqın tapdalanmasına imkan yaratmasın. Ailənin sevgi, şəfqət və ehtiram əsasında qurulmasını məqsəd bilən şəriət bunu tələb edir.

Bu səbəbdən mən qərara gəldim ki, problemə bu tədqiqatın əvvəlində göstərdiyim metodoloji qaydada nəzər salım. Bildirmişdim ki, Allahın qanunu əzəlidir və Onun qoyduğu qanuna-

---

mizcə, bu əlavələri ravilər etmişlər. Nəticədə, həmin əlavələr hədisin orijinalına qarışıb. Biz bu məqamı, ələlxüsus şifahi rəvayətlərdə, orijinala şərhlərin qarışdığını göstərən əlamətlər aşkar olarsa, diqqətdən qaçırmamalıyıq. Bəlkə də, İmam Əhmədin rəvayət etdiyi hədis (19774) buna ən bariz misaldır. Digər ravilərin rəvayətlərindən fərqli olaraq, İmam Əhmədin nəql etdiyi hədisdə əlavələr vardır. Bu əlavələr ya şərh xarakterlidir, ya da ravilərdən birinin istifadə etdiyi Quran ayəsi formasında qeyddir. Məsələn, "Onların itaət etməyəcəyindən ehtiyatlansanız..." sözü buraya daxildir. Bu cür sözlərin Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* xalqa müraciətində göstərilməsi təəccüb doğurur. Bu əlavələr hədisin digər heç bir versiyasında mövcud deyildir. Bütün bunlarla yanaşı, görürük ki, həm "yatağın bölüşdürülməsi"ndən söz açan bu versiya, həm də "Vida həcci" hədisinin digər versiyaları ailədaxili münaqişənin həllində Quran ayəsində göstərilmiş mərhələli həll yoluna toxunmur. Demişdik ki, "qəvamə" ayəsində həll yolu olaraq "öyüd-nəsihət vermək, yatağı ayırmaq və "vurmaq" göstərilmişdir. Əksinə, bu versiyalarda başqa problemdən danışılır. Bu, digər hədislərin də işarə etdiyi "açıq-aşkar əxlaqsızlıq" problemidir. Bu problem həmin rəvayətdə metaforik üslubda "yatağın bölüşdürülməsi" kimi göstərilib və tərbiyə vasitəsi olaraq "döymək" təqdim olunur. Bu hədisdə döyməyin necəliyindən söz açılır və hədisin digər versiyaları da təsdiqləyir ki, söhbət qisas xarakterli deyil, tərbiyələndirici aktdan – "əziyyətsiz döymə"dən gedir.

uyğunluqları başa düşmək, zaman və məkan amilini nəzərə almaq, problemə ətraflı nəzər salıb hərtərəfli təhlil etmək lazımdır. Buna görə də Qurani-Kərimdə "darabə" sözünə və ondan düzəldilmiş digər söz-formalara nəzər salmağın vacibliyini başa düşdüm. Quranı Quranla izah etmək daha məqsədəuyğundur. Quranla izah olunan, Şəriətin məqsədləri ilə təsdiqlənən yanaşma daha yaxşıdır.

Quranda "darabə" sözü və ondan törəmiş söz-formalar 17-dir:

*"Allah belə bir məsəl çəkdi..." (ən-Nəhl, 75)*[1]*;*

*"Səfərə çıxdığınız zaman kafirlərin sizə zərər yetirəcəklərindən qorxarsınızsa, namazı qısaltmaq (dörd rəkətli namazı iki rəkət qılmaq) sizə günah hesab edilməz..." (ən-Nisa, 101);*

*"Biz onları mağarada illərlə (üç yüz doqquz il) yuxuya verdik" (əl-Kəhf, 11);*

*"Siz (Allaha şərik qoşmaqla) həddi aşan bir qövmsünüz deyə, (sizi başlı-başına buraxıb) Quranı sizə təbliğ etməkdən vaz keçməliyikmi?!" (əz-Zuxruf, 5);*

*"...Allah haqq ilə batili (sizdən ötrü) ayırd etmək üçün belə misallar çəkir. Köpük heç bir şey olmadığı üçün uçub gedər. İnsanlara fayda verən bir şey isə yer üzündə qalar. Allah belə misallar çəkir!" (ər-Rəd, 17);*

*"...baş örtüklərini yaxalarının üstünə çəksinlər..." (ən-Nur, 31);*

[1] "Allah misal çəkdi" ifadəsi Quranın bir çox ayəsində mövcuddur.

*"(İzzət və cəlalıma) and olsun ki, Biz Musaya belə vəhy etdik: "Qullarımla gecə yola çıx, (əsanı suya vurmaqla) onlar üçün dənizdə quru bir yol aç..." (Taha, 77);*

*"...Onlara zəlillik, miskinlik damğası vuruldu və Allahın qəzəbinə düçar oldular..." (əl-Bəqərə, 61);*

*"...Onların boyunlarını vurun, bütün barmaqlarını (əl-ayaqlarını) doğrayın!" (əl-Ənfal, 12);*

*"..."Əlinə (yüz yaş və ya quru çubuqdan ibarət) bir dəstə götür və onunla (övrətini) vur. Andını pozma..." (Sad, 44)*[1]*;*

*"(Ey möminlər!) Kafirlərlə (döyüş meydanında) qarşılaşdığınız zaman boyunlarını vurun..." (Məhəmməd, 4);*

*"...(Bu sözlərdən sonra) onların (möminlərlə münafiqlərin) arasına qapısının içəri tərəfində mərhəmət və bayır tərəfində əzab olan bir sədd çəkiləcəkdir" (əl-Hədid, 13);*

*"...gizlətdikləri bəzək şeylərini (xalxallarını) göstərmək üçün ayaqlarını (yerə və ya bir-birinə) vurmasınlar..." (ən-Nur, 31);*

---

[1] Ayənin ərəbcə mətnindəki "diğs" sözü dərz, topa, dəstə deməkdir. Müfəssirlər bildirmişlər ki, burada xurma ağacının yumşaq yarpaqları nəzərdə tutulub. Adəm oğlunu şərəfli-hörmətli edən Allah Təala həyat yoldaşına acığı tutmuş və səbirlə xəstəliyinə dözən Əyyuba bildirir ki, ona yüz xurma ağacı ilə yüz dəfə vurmaqla andını yerinə yetirsin. Əyyub xəstə ikən ona qarşı səhv davranmış zövcəsini yarpaqla vurmuş, andını simvolik olaraq yerinə yetirmişdi. Bununla da, zövcəsinə fiziki xətər yetirməmiş, onu alçaltmamışdı. Oxşar hala biz İbrahim peyğəmbərin oğlu İsmayılı kəsməsi haqda Allaha vəd verməsi və Allahın ona bundan sonra qoyun kəsməyi əmr etməsi ilə qurtarması əhvalatında da rast gəlirik.

*"Bəs mələklər onların üzlərinə, arxalarına vura-vura canlarını alanda halları necə olacaq?" (Məhəmməd, 27);*

*"Yadınıza salın ki, Musa öz qövmü üçün su istədikdə, Biz ona: "Əsanı daşa vur!" – dedik..." (əl-Bəqərə, 60);*

*"Sonra bütlərin üstünə yüyürüb sağ əli ilə onlara möhkəm bir zərbə endirdi" (əs-Saffat, 93).*

Ayələrdən məlum olur ki, "darabə" feli həm müstəqim, həm də məcazi mənalarda ("təcridetmə", "ayırma", "uzaqlaşdırma", "tərketmə") işlədilmişdir. Məsələn, ayələrdəki:

"***darabə məsələn***" – "bir şeyi misal çəkmək, aydınlaşdırmaq, fərqləndirmək";

***"darabə fil-ard"*** – "səfər etmək, ayrılmaq";

***"darabə aləl-uzun"*** – "qulaq asmağa mane olmaq";

***"darabə əs-səfəh aniz-zikr"*** – "uzaqlaşdırmaq, etinasız yanaşmaq";

***"darabəl-həqqa vəl-batil"*** – "haqqı batildən ayırmaq";

***"darabəl-xumura aləl-cuyub"*** – "sinəni örtmək";

***"darabəl-bəhra"*** – "dənizi yarmaq";

***"darabəs-sura bəynəhum"*** – "onları bir-birindən ayırmaq";

***"darabəz-zullə vəl-məskənə ələyhim"*** – "onlara zəlillik və süstlük göndərmək";

***"darabəl-ə`nəq vəl-bənan"*** – "başlarını və əllərini üzmək" deməkdir.

Digər ayələrdə isə bu fel və ondan törəmiş söz-formalar birbaşa – "zərblə vurmaq, qüvvətlə dəf etmək, maddi olan şeyə

zərbə endirmək" mənasında işlədilmişdir. Məsələn, bütləri qırmaq, daşla vurmaq və sairdə olduğu kimi.

Deməli, Quran kontekstində "darabə" sözünün ümumi mənası "ayırmaq, təcrid etmək, uzaqlaşdırmaq və dəf etmək"dir[1].

Elə isə aşağıdakı ayədə – ər-arvad arasındakı münaqişəni həll etmək, ünsiyyət və sevgini qaytarmaq kontekstində "darabə" sözü nə mənada işlədilmişdir?

"Kişilər qadınlar üzərində ixtiyar sahibidirlər (onların hamisidirlər). Bu, Allahın onlardan birini digərinə üstün etməsi və (kişilərin) öz mallarından (qadınlar üçün) sərf etməsinə görədir. Əməlisaleh qadınlar (ərlərinə) itaət edib Allahın himayəsi sayəsində gizli şeyləri (ərlərinin sirlərini, mal-dövlətini, namus və şərəfini) qoruyub saxlayırlar. (Ey kişilər!) Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin, (yola gəlməzsə) onlardan yatağınızı ayırın **"vədribu"**! Sizə itaət etdikdə isə daha onlara (əziyyət vermək üçün) başqa yol axtarmayın. Əlbəttə, Allah ucadır, böyükdür!

(Ey möminlər!) Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, o zaman kişinin adamlarından bir nəfər və qadının adamlarından da bir nəfər münsif (vasitəçi) təyin edib (onların yanına) göndərin. Əgər onlar (bu iki vasitəçi ər-arvadı) barışdırmaq istəsələr, Allah da onların köməyi olar. Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər işdən) xəbərdardır!" (ən-Nisa, 34-35).

---

[1] Diqqətəşayandır ki, Qurani-Kərimdə fiziki təzyiq göstərmək, əziyyət etmək, cəzalandırmaq mənasında "darabə" feli deyil, "cələdə" (vurmaq, şallaqlamaq) feli işlədilir. Məsələn: "Zinakar kişiyə və zinakar qadına yüz çubuq vurun" (ən-Nur, 2).

Əgər:

a) islah və xoşbəxtliyin konteksti, vəziyyəti, məqsəd və mərhələlərini;

b) islamın insana ehtiram bəslədiyini, şərəf-izzətini qoruduğunu, müqəddəratını təyin etmədəki haqqını tanıdığını;

c) evlilikdəki ixtiyariliyi, tərəflərdən birinin qane olmadıqda, hüquqlar qorunmadıqda evliliyə son verə bildiyini, qarşı tərəfi nəyəsə zorla məcbur etməyin qeyri-mümkünlüyünü nəzərə alsaq, məlum olacaqdır ki, ayədəki "darabə" felinin mənası "ağrıtma, alçaltma" ola bilməz. Ən məqsədəuyğun olanı "darabə" sözünün Qurandakı ümumi mənasıdır – uzaqlaşdırma, ayrılma və tərk etmə! Çünki ərin qadından uzaqlaşıb kənar durması, evdən ayrılması evlilik münasibətlərinin yoluna qoyulmasının mərhələlərinə uyğundur. Həmçinin bu addım qadınla yatağı ayırmaqdan sonra gəlir və daha ciddi məzmun ifadə edir. Axı qadından uzaq gəzmək, evi tərk etmək, ondan və evindən bütünlükdə uzaqlaşmaq onu (qadını) konkret fakt qarşısında qoyur: ərlə çəkişmənin, itaətsizliyin nəticəsi əyani şəkildə onun gözlərində canlanır – ayrılıq və boşanma! Belə konkret addım qadına hiss etdirir ki, davranışının, itaətsizliyinin nəticəsi nədir! Yəni, qadına praktik şəkildə göstərilir ki, istədiyi budurmu? O, itaətsizliyi ilə ayrılıq və boşanmaqmı istəyir? Yoxsa inadkarlığı və nadanlığı buraxıb əvvəlki həyatamı qayıtmaq yaxşıdır?

Qadını evində tək qoymaq evlilik əlaqələrinin tənzimlənməsi baxımından ən məqsədəuyğun addımdır. Bu, tərəfləri məsuliyyət qarşısında qoyur, qəsdli olmayan münaqişədən geri çəkilmələrini onlara təlqin edir. Deməli, ayədə söhbət qadını

evində tək qoymaqdan, ondan tamamilə uzaqlaşmaqdan gedir. Bu, daha ciddi addımdır, qadına yaxşı dərs verməkdir. Əslində biz bunu ər və arvadın ayrılığa son qoymaq məqsədilə atdıqları mümkün fədakarlıq addımı adlandıra bilərik. Onlar başa düşürlər ki, itaətsizlik və söz-söhbət ciddi nəticə doğura bilər: ailə dağılar! Evi tərk etmək mərhələsindən sonra, sevgiyə yer qalmışdırsa, kişi və qadının ailəsindən üçüncü şəxsə kömək üçün müraciət olunur. Bu şəxs dialoqu təmin edir, münaqişənin səbəblərini öyrənir, təkliflər irəli sürür. Məqsədi ayrılığa və münaqişəyə son qoymaq, zülmün, toqquşmanın qarşısını almaq, tərəfləri barışdırmaq, alınmazsa, bir-birindən boşatmaqdır.

"...ondan sonra yaxşı dolanmaq (qadını yaxşı saxlamaq), ya da xoşluqla ayrılmaq (buraxmaq) gərəkdir..." (əl-Bəqərə, 229).

Bunu Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* əməli təcrübəsi də təsdiqləyir. Belə ki Peyğəmbərlə *(Ona Allahın xeyir-duası və salamı olsun!)* xanımları arasında mübahisə yarandıqda onların daha yaxşı yaşamaq istəklərini rədd etmiş, onlarla evini ayırmış, bununla da, onların inadkarlığı qırılmış, itaətsizlikləri uzun sürməmişdi. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bir ay ərzində xanımları ilə əlaqəni tamamilə kəsmiş, evlərinə getməmiş, onları seçim qarşısında qoymuşdu: ya onunla mövcud imkanlar daxilində yaşayacaq, ya da o, onlardan ayrılacaq, gözəl şəkildə onları boşayacaqdı. Bu haqda Quranda deyilir:

"Ya Peyğəmbər! (Artıq xərclik və pal-paltar istəyən) zövcələrinə belə de: "Əgər siz dünya həyatını və onun dəbdəbəsini istəyirsinizsə, gəlin sizə talaq haqqınızı verim və (sonra da) gözəl bir tərzdə (Allahın buyurduğu qayda üzrə) boşayım!"

Yox, əgər Allahı, Onun rəsulunu və axirət yurdunu istəyirsinizsə, (bilin ki) Allah içərinizdən yaxşı işlər görənlər üçün böyük bir mükafat (Cənnət) hazırlamışdır. (Peyğəmbər əleyhissəlamın xanımları dünya nemətlərindən vaz keçib axirət yurdunu daha üstün tutdular)" (əl-Əhzab, 28-29).

Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bu müddət ərzində zövcələrindən heç birinə fiziki zərər yetirməmiş, onları alçaltmamışdı. Əgər döymək ilahi əmr, "şəfaverici dərman" olsaydı, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* hamıdan əvvəl bu işi görər, Allahın buyruğuna itaət göstərərdi. Peyğəmbərimiz *(Ona Allahın xeyir-duası və salamı olsun!)* əsla döyməmiş, döyməyi əmr etməmiş, buna icazə də verməmişdi. Həzrəti Əbubəkr və Həzrəti Ömər *(Allah onlardan razı qalsın!)* Peyğəmbəri *(Ona Allahın xeyir-duası və salamı olsun!)* qəzəbləndirmiş qızlarını vurmaq istədiklərində Allahın rəsulu onlara mane olmuşdu. Məlumdur ki, Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* davranışları və ya əməli sünnəsi Qurani-Kərimi başa düşməyimizdə başlıca vasitədir. Münaqişədən irəli gələn nəticəni izahda Peyğəmbərin davranışı bizim üçün nümunədir. Xanımları görəndə ki, iş ciddidir, ailələrinin onlara qəzəbi tutub, Peyğəmbər artıq onlarla yaşamır, bu, onlara kifayət etdi; haqqı başa düşüb, itaətsizlikdən üz döndərdilər, onunla mövcud maddi imkanlar daxilində yaşamağa razı oldular[1].

Bu minvalla, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* zövcələri itaətsizlik göstərdiklərində evini onlardan ayırmış, bir ay müddətinə onlardan kənar durmuşdu. Bu, ona görə idi ki,

---

[1] Bax: Buxari. Səhih, hədis № 5395; Müslim. Səhih, hədis № 2704; Tirmizi. Sünən, hədis № 3240; İmam Əhməd. Müsnəd, hədis № 24588.

onlar itaətsizliyin doğuracağı nəticəni dərk etsinlər. Bu vaxt o, döymək üsuluna əl atmamışdı; əksinə, özünü onlardan təcrid etmiş, evini ayırmışdı; ailələrinə də bunu xəbər verməmişdi. Onlar da işin ciddiliyini dərk etmiş, ayrılığın nə olduğunu görmüş, itaətsizlikdən əl çəkmişdilər.

Elə isə Peyğəmbər praktikasında "darabə" ayrılmaq, təcrid etmək, uzaqlaşmaq deməkdir. Bu, bir tərəfdən, işin psixoloji tərəfinə uyğundur, digər tərəfdən isə Quranda "darabə" sözü və törəmə formalarının ümumi məzmunu ilə üst-üstə düşür. Həmçinin bu, İbn Abbasın problemə baxışına uyğundur. Sonuncu tövsiyə edirdi ki, qadınların ərlərini narazı salmaları misvakla "döyülmək"dən o yana keçməsin. Maraqlıdır, belə olarsa, ərin reaksiyası qadının davranışına uyğun olur. Lakin bir məsələ aydın deyildir: misvakla vurmaq münaqişənin bu mərhələsində daha artıq ciddiliyi göstərmək üçün kifayət etmir. Çünki "yatağı ayırmaq" mərhələsindən sonra daha ciddi addım atılmalıdır; misvakla vurmaq həmin ciddi addımı ifadə etmir.

# XÜLASƏ

Fikrimizcə, itaətsizlik, nifrət, zədələnmə ilə müşayiət olunan evlilik münaqişələrinin həlli mərhələləri ilə əlaqəli Quran kontekstində işlədilmiş "darabə" həyat yoldaşından ayrı durmaq, bütünlükdə ondan təcrid olunmaq deməkdir. Bu, qadına itaətsizliyin doğurduğu nəticələri başa salmaqda son vasitədir. Beləliklə, qadın dərk edir ki, bu mərhələdən sonra ayrılıq və boşanma gəlir; boşanmağın nəticələri isə, xüsusən uşaqlar varsa, ağır olur. Həmin situasiyada ayrı durmaq və təcrid etmək döyməkdən, əziyyət etmək və alçaltmaqdan yaxşıdır. Çünki döyməyin, təhqir etməyin evlilik və insanlıq kimi şərəfli münasibətlərdə yeri yoxdur. Döyməklə ər və arvad arasında sevgi, ehtiram formalaşdırmaq mümkün deyildir.

Problemə bu cür yanaşma Peyğəmbər təcrübəsi və islamın məqsədlərinə uyğundur. İslama görə, ailə sevgi, mehribanlıq, iffət və əmin-amanlıq üzərində qurulmalıdır. Belə olarsa, ailə daxilində xoşbəxtlik təmin olunacaqdır.

Şübhə yoxdur ki, müsəlmanlar arasında yayılmış bir sıra anlayışlar həqiqət ifadə etmir. Buna səbəb ümməti məşğul edən keçmiş ənənələrdir, fəlsəfi yanaşmalardır, onun müxtəlif qrupları arasında cərəyan etmiş çəkişmələrdir. Nəticədə, ümmət indiki acınacaqlı vəziyyətə düşmüşdür.

Unutmaq olmaz ki, dünyagörüşü müəyyən zaman və məkanda mövcud olmuş informasiya və bilik əsasında dini mətnləri dərk etmək səviyyəsi ilə ölçülür. Elə isə anlayışları düzgün başa düşmək, müəyyən fikir və ideyaların həqiqi məzmununu

üzə çıxarmaq üçün davamlı araşdırmalara, təhlil və müqayisələrə ehtiyac vardır. Elə anlayışlar mövcuddur ki, zaman dəyişdikcə onlara yenidən nəzər salmaq lazım gəlir. Belə olduqda biz şəriətin nə demək istədiyini düzgün başa düşürük.

Biz bu araşdırmamızda bacardığımızı ortaya qoymuşuq, biliyimizin, mühakimə bacarığımızın imkanlarından mümkün qədər istifadə etmişik. Bilik səyyahlarına vacibdir ki, bu cür problemləri reallıq və mövcud biliklər əsasında tədqiq etsinlər. Bununla da, şəriətin nə demək istədiyini, dinin məqsədlərini başa düşəcəklər.

# MÜNDƏRİCAT


Tərcüməçinin ön sözü . . . . . . . . . . . . . . . . . . . . . . . .3

Ön söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .8

Quranda evlilik münaqişələrinin həlli . . . . . . . . . . . . . . . . .9

1. Metodologiya . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .14

2. Cəzalandırma . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .17

3. "Darabə" feli . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .29

Xülasə. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .42

*Əbdülhəmid əbu Süleyman*

***QURANDA EVLİLİK MÜNAQİŞƏLƏRİNİN HƏLLİ***

**Bədii və texniki tərtibat:**
Həsən Həsənov

"İdrak" İctimai Birliyi
AZ1100, Bakı ş., Bakı Universiteti MTK,
M. Seyidov 3138, D korpusu, 1-ci mərtəbə
www.idrak.org.az

Yığılmağa verilib: 21.04.15. Çapa imzalanıb: 15.05.14
Çap vərəqi: 2,5. Tiraj: 2000 nüsxə. Sifariş №:

CBS POLYGRAPHIC PRODUCTION

mətbəəsində çap olunub



*Əbdülhəmid Əhməd əbu Süleyman*

- Əbdülhəmid Əhməd əbu Süleyman 1936-cı ildə Məkkə şəhərində anadan olmuşdur.
- Orta məktəbi bitirdikdən sonra, 1959-cu ildə Qahirə universitetinin İqtisadiyyat fakültəsinə qəbul olunmuşdur.
- 1973-cü ildə ABŞ-ın Pensilvaniya universitetində "Beynəlxalq münasibətlər" ixtisası üzrə doktorluq dissertasiyasını müdafiə etmişdir.
- Bir müddət Səudiyyə Ərəbistanında, Kral Məhəmməd ibn Səud adına Mədinə İslam Universitetində fakültə dekanı vəzifəsində işləmişdir.
- 1988-1999-cu illərdə Malayziya Beynəlxalq İslam Universitetinin rektoru olmuşdur.
- 1999-cu ildən ABŞ-dakı Beynəlxalq İslam Fikri İnstitutunun direktorudur.
- ABŞ və Kanada Müsəlman Tələbələri İttifaqının yaradıcılarından biridir.
- Professor Əbdülhəmid Əhməd əbu Süleyman sosiologiya, hüquq və islam düşüncəsində novatorluq üzrə çoxsaylı kitabların, monoqrafiya və məqalələrin müəllifidir.

Əsərləri:

- İslam iqtisadiyyatı nəzəriyyəsi: fəlsəfi və müasir metodlar
- Müsəlmanın düşüncə böhranı
- İslam maarifçiliyi: layihələr və nailiyyətlər
- İslam düşüncəsində metod problemi
- Müsəlman ailənin biblioqrafik məlumat kitabı
- Müsəlmanın iradə və mənəviyyat böhranı
- Müsəlman dünyasında ali təhsil sisteminin canlandırılması
- İki şəriət prizmasından insana baxış və s.

İDRAK